

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 avqust 2026-cı il №51 (3053) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyevin sosial media hesablarında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə bağlı paylaşım edilib




Prezident İlham Əliyevin sosial media hesablarında 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə bağlı paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti”.

## Azərbaycan dili bizim milli sərvətimizdir

2001-ci ildən bu günədək 25 ildir ki, hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultaydan düz 100 il ötür. Bu əlamətdar yubiley münasibətilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən 29 iyun-3 iyul tarixlərində Bakı şəhərində “Türk Dünyası Həftəsi” keçirilib və elm, təhsil, dil, mədəniyyət və ortaq tarixi irsin qorunması sahələrində türk dövlətləri arasında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini özündə əks etdirən “Xankəndi Bəyannaməsi” qəbul edilib.

Türk dilləri ailəsinin Oğuz qrupuna daxil olan Azərbaycan dilinin tarixi uzaq keçmişlərə söykənir. Ayrı-ayrı türk boylarının ümumi ünsiyyət vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dilinə çevrilmişdir.

Qədim mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır.

(Ardı 7-ci səhifədə)

# Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 30-da Qırğız Respublikasına dövlət səfərinə gəlib.*

Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova qarşılayıblar.

* * *

İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birlikdə Çolpon-Ata şəhərindəki “Issyk-Kul Golf Resort” kompleksində Qolf Klubun açılışında iştirak edib.

Əvvəlcə “Issyk-Kul Golf Resort” kompleksi və Qolf Klub barədə videoçarx nümayiş olunub.

Qolf Klub İssık-Kul gölünün sahilində “Issyk-Kul Golf Resort” çoxfunksiyalı turizm kompleksinin ərazisində yerləşir. Bu kompleksin ümumi sahəsi 120 hektardır. Bunun də 103 hektarı Qolf Klubun payına düşür.

Bu layihənin icrası yalnız yay aylarında deyil, digər fəsillərdə də İssık-Kula turist axınını cəlb etmək üçün böyük rol oynayacaq. Belə ki, burada ilin 10 ayında qolf oynamaq üçün meydança qurulub. Zəruri infrastrukturun yaradıldığı Qolf Klubun ərazisində 80 yerlik mehmanxana da qonaqların ixtiyarına veriləcək. Burada qolf akademiyasının yaradılması və müxtəlif səviyyəli qolf turnirlərinin keçirilməsi nəzərdə tutulur.

Turizm, idman, sağlamlıq və əyləncə meyarlarını özündə birləşdirən “Issyk-Kul Golf Resort” kompleksində Qolf Kluba yanaşı, ümumilikdə dörd və beşulduzlu bir neçə hotel, restoranlar, çimərlik sahələri olacaq.

Qırğızıstan Qolf Federasiyasının prezidenti Xomeni Erqeşov çıxış edərək dövlət başçılarını salamlayıb.

Sonra Qırğızıstan Prezidenti Sadır Japarov çıxış edib.

Daha sonra dövlət başçıları “Issyk-Kul Golf Resort” kompleksinin ərazisini gəzdilər, burada qolf oyununun rəmzi başlama mərasimində iştirak etdilər.

* * *

Qırğızıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 31-də Çolpon-Ata şəhərində rəsmi qarşılanma mərasimi keçirilib.



Azərbaycanın və Qırğızıstanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Azərbaycanın və Qırğızıstanın Dövlət himnləri səsləndirilib.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan əsgərlərini salamlayıb.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Qırğızıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Sadır Japarova təqdim edilib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

İyulun 31-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olub.

* * *

Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanmış sənədlərin iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun iştirakı ilə mübadiləsi mərasimi olub.

Dövlət başçıları “Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı”nı və “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə”ni imzalayıblar.

“Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında 2022-ci il 11 oktyabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında İkinci Əlavə Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov mübadilə ediblər.

“Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş”i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğızıstanın nəqliyyat və rabitə naziri Talantbek Soltobayev mübadilə ediblər.

“Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında yükdaşımalar, gəmiçilik və gəmiqayırma sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”-nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğızıstanın nəqliyyat və rabitə naziri Talantbek Soltobayev mübadilə ediblər.

“Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında neft məhsullarının tədarükü sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın energetika naziri Altınbek Rısbekov mübadilə ediblər.

“Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında energetika sahəsində əməkdaşlıq üzrə 2026-2028-ci illər üçün Yol Xəritəsi”ni Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın energetika naziri Altınbek Rısbekov mübadilə ediblər.

“2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında 2024-2029-cu illər üçün Əməkdaşlıq Proqramının həyata keçirilməsinə dair Yol Xəritəsi”ni Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov mübadilə ediblər.

“Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Milli Statistika Komitəsinin sədri Baktıbek Kudaybergenov mübadilə ediblər.

“Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə Qırğız Respublikasının Dövlət Milli Təhlükəsizlik Komitəsi arasında kibertəhlükəsizlik sahəsində Anlaşma Memorandumu”nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Maksat Asanaliyev mübadilə ediblər.

“Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Qırğız Respublikasının İqtisadiyyat və Ticarət Nazirliyi yanında Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidməti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın İqtisadiyyat və Ticarət Nazirliyi yanında Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidmətinin sədri Kayrat Mamatov mübadilə ediblər.

“Azərbaycan Respublikasının Şuşa şəhəri ilə Qırğız Respublikasının Çolpon-Ata şəhəri arasında qardaşlaşma əlaqələrinin yaradılması haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Çolpon-Ata şəhərinin meri Rustam Kadırkulov mübadilə ediblər.

“Azərbaycan Respublikasının Qəbələ şəhəri ilə Qırğız Respublikasının Karakol şəhəri arasında qarşılıqlı əməkdaşlıq və qardaşlaşma əlaqələrinin yaradılması haqqında Memorandum”u Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Karakol şəhərinin meri Talantbek İmanov mübadilə ediblər.

“Azərbaycan Respublikasının Gəncə şəhəri ilə Qırğız Respublikasının Oş şəhəri arasında əməkdaşlığın və qardaşlaşma əlaqələrinin yaradılması haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Oş şəhərinin meri Janar Akayev mübadilə ediblər.

(Ardı 2-ci səhifədə)

# Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri





(Əvvəli 1-ci səhifədə)

"AzerGold" QSC ilə "Kyrgyzaltyn" ASC arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Memorandum"u "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və "Kyrgyzaltyn" ASC-nin İdarə Heyətinin sədri Kubat Abdraimov mübadilə ediblər.

* * *

İyulun 31-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib.

Qırğızıstan Prezidenti iclasda çıxış edib.

**Prezident Sadır Japarovun çıxışı**

- Hörmətli İlham Heydər oğlu.

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri.

Bizim incimiz olan İssık-Kul gölünün sahilində Sizi salamlamaqdan səmimi-qəlbdən şadam.

Qırğızıstana dövlət səfəri barədə dəvətimi qəbul etdiyinizə görə minnətdarlığımı bildirirəm. Qırğızıstanda Sizə - qardaş Azərbaycanın liderinə və qırğız xalqının əziz dostuna böyük hörmət bəsləyirlər. Sizin rəhbərliyinizlə Azərbaycan inamla inkişaf edir, beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirir, regionda sülhün və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bu gün ölkə böyük təəssürat doğuran nəticələr nümayiş etdirir, ardıcıl olaraq genişmiqyaslı islahatlar həyata keçirir və milli maraqlarını qətiyyətlə müdafiə edir. Bu son nailiyyətlər Azərbaycan xalqının Ümummilli Lideri, atanız hörmətli Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində qurulub. Bu quruculuq yolu davam edir. Siz ölkənin gələcək inkişafını təmin edir, regional və beynəlxalq proseslərdə onun rolunu möhkəmləndirirsiniz.

Qırğızıstan ilə Azərbaycanı tarixi köklər və mənəvi yaxınlıq birləşdirir. Bizim dəyərlərimiz öz əksini iki xalqın zəngin mədəni irsində tapıb. Dahi Nizami Gəncəvinin dediyi kimi: "Qazanılan hər bir dost səmanın bəxş etdiyi bir nemətdir". Xüsusi qürur hissi ilə qeyd etmək istərdim ki, Qırğızıstan və Azərbaycan bir-birinin timsalında etibarlı dost qazanıb.

Hörmətli İlham Heydər oğlu, Sizin səfəriniz Qırğızıstan-Azərbaycan münasibətlərinin xüsusi xarakterini bir daha təsdiqləyir. Biz möhkəm dostluq və qarşılıqlı hörmət təməlinə əsaslanan ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafında yeni bir mərhələyə qədəm qoyuruq. Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığımızın inkişafına mane ola biləcək həll edilməmiş heç bir məsələ yoxdur. Əksinə, tam etimad və açıqlıq mühiti yaranıb ki, bu da bizə inamla irəliləməyə imkan verir.

Məhz belə bir ab-havada ikitərəfli əməkdaşlığın gələcəyini formalaşdıran mühüm prinsiplər və təşəbbüslər yaranır, qərarlar qəbul edilir. Əldə edilən bütün razılaşmaların birgə inkişafa və ortaq məqsədlərə çatmaq üzrə səmimi səylərə əsaslanması xü-



susilə vacibdir. Qırğız-Azərbaycan əməkdaşlığı nəqliyyat, energetika, investisiya, təhlükəsizlik, təhsil və digər sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişlənməsi üçün əhəmiyyətli potensiala malikdir.

Hesab edirəm ki, bugünkü danışıqlar ənənəvi olaraq etimad və konstruktiv ab-havada keçəcək. Danışıqların yekunlarına dair ikitərəfli əlaqələrin daha da inkişafına yönəlmiş mühüm razılaşmalar əldə ediləcək. Onların ardıcıl həyata keçirilməsi ümumi məqsədimizə - Qırğızıstanın və Azərbaycanın qardaş xalqlarının rifahının yüksəldilməsinə töhfə verəcək. Əsas siyasi nəticə isə müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması olacaq.

Hörmətli İlham Heydər oğlu, Sizi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər Qırğız torpağında bir daha səmimi-qəlbdən salamlayıram.

Möhtərəm İlham Heydər oğlu, buyurun, sözü Sizə verirəm.

* * *

Sonra Azərbaycan Prezidenti çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Sadır Nurqojoyeviç.

Əziz dostlar.

Əvvəlcə, qardaş Qırğızıstana dövlət səfərinə dəvətə, mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Bu, gözəl ölkənizə ilk səfərim deyil, amma təcrübəmə əsaslanaraq deyə bilərəm ki, Sizin rəhbərliyinizlə təkcə bu bölgədə deyil, bütün ölkədə gedən inkişaf məndə böyük təəssürat yaradıb. Əvvəlcə, Sizi və bütün qardaş Qırğızıstan xalqını sosial-iqtisadi inkişaf, ölkənin iqtisadi potensialının möhkəmləndirilməsi, beynəlxalq məsələlərdə rolunun artırılması üzrə əldə olunan böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim.

Sizin dostlarınız və qardaşlarınız olaraq, hər bir uğurunuza daim sevinirik və həm inşaat sektorunda, həm də vəsaitlərin xalqın və ölkənin rifahına xərclənməsinə imkan verən maliyyə, büdcənin doldurulması sahəsində Sizin fəaliyyətinizin nəticələri aydın şəkildə görünür. Bu, bizdə sevinc hissi doğurur. Çünki biz dost, qardaşıq, xalqlarımızı ortaq köklər birləşdirir və qardaş ölkənin uğurunu öz uğurumuz hesab edirik.

Qarabağın bərpasında köməyə görə təşəkkürümü bildirmək istərdim. Ağdam bölgəsində Sizinlə birlikdə açılışını etdiyimiz məktəb Manasın adını daşıyır, orada uşaqlar artıq təhsil alırlar. Bu məktəb qardaşlığımızın daha bir rəmzidir, həmçinin xalqlarımızın birliyinin abidəsi kimi daim qalacaqdır. Təkcə Qarabağın deyil, bütün Azərbaycanın sakinləri bunu qiymətləndirirlər. Mən, həmçinin şadam ki, humanitar sahədə əlaqələrimiz uğurla inkişaf edir: bu yaxınlarda Azərbaycanda keçirilən Qırğızıstan Mədəniyyəti Günləri və Qırğızıstanda Azərbaycan Günləri mədəniyyətimizin necə zəngin olduğunu və xalqlarımızın yaradıcılıq potensialını tam şəkildə üzə çıxaran belə tədbirlərin vacibliyini bir daha nümayiş etdirdi.

Siz müxtəlif sahələrdə əməkdaşlığı qeyd etdiniz. Əlbəttə, mən bütün sahələrdə qarşıya qoyduğumuz məqsədlərin hamısına nail olunacağına əminəm. Şadam ki, Qırğız-Azərbaycan Fondu uğurla fəaliyyət göstərir. Fondun vəsaitlərinin artırılması barədə qərar qəbul etdik və bir neçə layihə artıq həyata keçirilir. Əminəm ki, Fond inkişaf etdikcə, layihələrin sayı da artacaq. Bu, ortaq məqsədlərimizə xidmət edəcək.

Sevinirəm ki, Azərbaycan, həmçinin İssık-Kulun infrastrukturunun, burada turizmin inkişafında da iştirak edib. Bu gün həmkarlarımızla birlikdə beşulduzlu "Bakı" hotelini açacağıq. Bu da dost-qardaş münasibətlərinin təzahürüdür, həmçinin Azərbaycanın İssık-Kulun turizm potensialının inkişafına kiçik töhfəsidir. Dünən Sizinlə aeroportdan gələndə gördüklərim - həm inşaat, həm də infrastruktur layihələri çox böyük təəssürat yaratdı.

Dünən birlikdə qolf oyunu üçün hər cür şəraitin yaradıldığı əraziyə baş çəkdik. Bu şərait beynəlxalq səviyyəlidir. Sizi bu nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Bütün bunlarda məhz Sizin xalqınıza və ölkənizə şəxsi sədaqətiniz, inkişafı sürətləndirmək səyləriniz hiss olunur. Siz buna nail olursunuz. Biz buna səmimi-qəlbdən sevinirik. Əlbəttə, Siz artıq qeyd etdiyiniz kimi, münasibətlərimizi müttəfiqlik səviyyəsinə yüksəldirik. Bu, qarşılıqlı fəaliyyətin ən yüksək səviyyəsidir. Bu, həm münasibətlərimizin xarakterini, həm də ruhunu əks etdirir.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm və əminəm ki, mənim dövlət səfərimin nəticələri qardaş münasibətlərimizin bundan sonra da möhkəmlənməsinə xidmət edəcək. Sağ olun.

* * *

**Prezident Sadır Japarov:** Hörmətli İlham Heydər oğlu, mühüm dəyərləndirmələrə və Qırğızıstan-Azərbaycan qarşılıqlı fəaliyyətinin yüksək səviyyəsini qeyd etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

* * *

İyulun 31-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sadır Japarovun və birinci xanım Ayqul Japarovanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.

* * *

İyulun 31-də Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib.

Mərasimdə çıxış edən Qırğızıstan Prezidenti **Sadır Japarov** deyib:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli xanımlar və cənablar.

Müasir Azərbaycan regional və beynəlxalq proseslərdə mühüm rol oynayan güclü və nüfuzlu dövlətdir. Sizin Azərbaycana rəhbərlik etdiyiniz illərdə dövlətçiliyin möhkəmlənməsi, iqtisadiyyatın inkişafı və irimiqyaslı layihələrin həyata keçirilməsi üzrə böyük nailiyyətlər əldə olunub. Sizin dəstəyiniz və daimi yaxınlaşmaq səyləriniz sayəsində qardaş ölkələrimiz möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanan əsl strateji tərəfdaşlıq münasibətləri əldə edib.

Bu gün münasibətlərimiz keyfiyyətcə geniş səviyyəyə yüksəlib və müttəfiqlik xarakteri qazanıb. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin inkişafında Sizin rolunuz xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın Mərkəzi Asya dövlət başçılarının Məşvərət görüşlərində iştirakı iqtisadi-ticari, nəqliyyat və energetika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Siz, həmçinin öz nüfuzunuzu ardıcıl olaraq regionda möhkəm sülhün bərqərar olmasına, sabitliyin möhkəmlənməsinə və yeni əməkdaşlıq mühitinin yaranmasına yönəldirsiniz.

Ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə Sizin sadiqliyiniz Qırğız xalqında dərin hörmət hissləri doğurur. Məhz bu səbəbə görə əziz dostum və qardaşım, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin Qırğız Respublikasının ali dövlət mükafatı - "Manas" ordeni ilə təltif olunması qərarını qəbul etdim.

Bu yüksək mükafat Sizin Qırğızıstan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizin təsdiqidir.

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi bu yüksək mükafat münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Hörmətli İlham Heydər oğlu, icazə verin, "Manas" ordenini Sizə təqdim edim.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın inkişafına, iki ölkənin xalqları arasında dostluğun möhkəmlənməsinə mühüm töhfəsinə görə 1-ci dərəcəli "Manas" ordeni ilə təltif edilməsi haqqında Qırğızıstan Prezidenti Sadır Japarovun Fərmanı oxunub.

Prezident Sadır Japarov 1-ci dərəcəli "Manas" ordenini dövlətimizin başçısına təqdim edib.

* * *

**Azərbaycan Prezidenti İlham Əliyev** çıxış edərək deyib:

- Hörmətli Sadır Nurqojoyeviç.

Əziz dostlar.

Əvvəlcə, bu yüksək mükafata görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istərdim. Mən onu Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində fəaliyyətimə Sizin verdiyiniz qiymət hesab edirəm.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri

(Əvvəli 2-ci səhifədə)



Sizinlə əməkdaşlıq illərimiz ərzində ölkələrimiz çox böyük və şərəfli yol qət edib, dövlətlərarası münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Dünyada bundan yüksək səviyyə mövcud deyil. Qardaş ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində şəxsi iştirakınıza görə Sizə çox dərindən minnətdaram.

Bizim mehriban, dost və qardaş münasibətlərimiz ölkələrimiz arasında bugünkü uğurlu inkişafın mühüm amilidir. Həmçinin mənim ünvanıma söylədiyiniz xoş sözlərə, bu yüksək ordenə görə Sizə səmimi minnətdarlığımı bildirirəm və Sizi əmin edirəm ki, Qırğızıstan-Azərbaycan münasibətlərinin ölkələrimizin və xalqlarımızın rifahı naminə davamlı inkişafı üçün bundan sonra da bütün səylərimi göstərəcəyəm.

Belə yüksək mükafata görə bir daha ürəkdən təşəkkür edirəm.

* * *



Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan ilə Qırğızıstan arasında dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxunub.

* * *

Çıxışına davam edən **Prezident İlham Əliyev** deyib: Bu yüksək mükafatı təqdim etməzdən əvvəl, Sadır Nurqojoyeviç, şəxsən Sizi, Sizin komandanızı, qardaş Qırğız xalqını Qırğızıstanın Sizin rəhbərliyiniz ilə qazanılan tarixi nailiyyətlər münasibətilə bir daha təbrik etmək istərdim. Mən Qırğızıstana ilk dəfə deyil ki, səfər edirəm, amma məhz Sizin prezidentliyiniz dövründə bizim aramızdakı təmaslar müntəzəm xarakter daşıyır. Mənim Qırğızıstana səfərlərimi və Sadır Nurqojoyeviçin Azərbaycana səfərlərini saysaq, onlarla qarşılıqlı səfər həyata keçirilib.

Lakin bütün bunlar məhz qardaş Qırğızıstan xalqının ölkə Prezidenti kimi yüksək vəzifəni Sizə etimad etməsindən sonra baş verir. Dəyişiklikləri hamı görür. Bunları həm dostlar, həm də ölkəyə gələn xarici müşahidəçilər görürlər. Onları görməmək mümkün deyil. Hətta bu gün İssık-Kul rayonunda müşahidə etdiklərimizi də Sadır Nurqojoyeviçin Qırğızıstana rəhbərliyi olmadan təsəvvür etmək mümkün deyil. Qırğız torpağının bu gözəl guşəsi hazırda ən əsas inkişaf dövrünü keçirir. Tarixdə heç kim heç vaxt belə qısa müddətdə burada gördüyümüz güclü inkişafın şahidi olmayıb. Bu, şəxsən Sizin xidmətinizdir. Sizin öz xalqınıza, öz köklərinizə, Qırğız xalqının yüksək mənəvi dəyərlərinə sədaqətinizdir və Qırğızıstanı yeni inkişaf səviyyəsinə yüksəltmək səylərinizdir. Siz buna nail olursunuz. Bu gün Sizin ölkənizin beynəlxalq nüfuzu ən yüksək səviyyədədir və Qırğızıstanın beynəlxalq ali orqana seçilməsi bunu təsdiq edir.

İqtisadi inkişaf, sosial tərəqqi Sizin Qırğız xalqına qayğınızın göstəricisidir. Necə ki, bu gün Qırğızıstandan xaricə deyil, xaricdən Qırğızıstana miqrasiya axını baş verir. Bütün bunlar Sizin şəxsi iştirakınız, Sizin qərarlarınız, Sizin uzaqgörənliyiniz sayəsində mümkün olub. Mən Bişkekdə dəfələrlə olmuşam, İssık-Kulun gözəl sahilinə də ilk dəfədir ki, gəlmirəm. Deyə bilərəm ki, bütün ölkə boyu inkişaf gedir. Əlbəttə, Qırğızıstan vətəndaşları bunu daha yaxşı bilirlər. Düşünürəm ki, Sizə göstərilən ümumxalq dəstəyi Sizin əməyinizin başlıca nəticəsidir və yəqin ki, ən böyük mükafatdır. Azərbaycan da Sizin həm Qırğızıstanın inkişafına, həm də ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfənizi yüksək qiymətləndirir. Mənim Fərmanımla Siz Azərbaycanın ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif olunmusunuz. İndicə Fərmanı elan etdilər. İcazə verin, bu yüksək mükafatı Sizə təqdim edim.

* * *

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Prezident Sadır Japarova təqdim edib.

* * *

**Prezident Sadır Japarov deyib:** Hörmətli İlham Heydər oğlu.

İcazə verin, göstərilən hörmət və dostluq əlamətinə görə, Sizə səmimi minnətdarlığımı bildirim. Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından birini - "Heydər Əliyev" ordenini Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Bu mükafat mənim üçün xüsusi əhəmiyyətə malikdir, çünki müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin formalaşmasının əsasını qoyan görkəmli dövlət xadiminin, Azərbaycan xalqının böyük oğlunun adını daşıyır.

Mən bu ordeni xalqlarımız arasında möhkəm münasibətlərin, strateji tərəfdaşlığa və müttəfiqliyə ortaq sadiqliyin rəmzi kimi qəbul edirəm. Bu xüsusi jestə, Qırğızıstana göstərdiyiniz diqqətə, xalqlarımızın yaxınlaşmasına daimi səylərinizə görə Sizə minnətdaram.

Sizə təşəkkür edirəm. Sağ olun.

* * *

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Qırğızıstan Prezidenti bəyanatla çıxış edib.

**Prezident Sadır Japarovun bəyanatı**

\- Hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Bu gün Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlunu və Azərbaycan nümayəndə heyətinin üzvlərini qonaqpərvər Qırğız torpağında böyük məmnunluqla salamlayırıq.

Qırğız Respublikasına dövlət səfəri ilə bağlı dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdaram.

Əminəm ki, bu səfər qardaş münasibətlərimizin möhkəmlənməsinə yeni impuls verəcək. Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir. Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır.

Biz cənab Prezidentlə Qırğızıstan-Azərbaycan əməkdaşlığına dair məsələlərin bütün kompleksi üzrə ətraflı və etimada əsaslanan danışıqlar apardıq. Bizim sədrliyimiz ilə Dövlətlərarası Şuranın 3-cü iclası keçirildi və Qərar imzalandı. Şuranın qərarlarının həyata keçirilməsinə dair informasiyanı dinlədik və birgə təşəbbüslərin yerinə yetirilməsinin gedişatını, o cümlədən Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyətini müzakirə etdik.

İkitərəfli qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini nəzərdən keçirdik və tərəfdaşlığımızın inkişafına dair yeni addımları müəyyən etdik. Bugünkü danışıqların mühüm yekunu müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması oldu. Bu tarixi hadisə, həqiqətən də Qırğızıstan-Azərbaycan əməkdaşlığının yeni mərhələsinin əsasını qoyur. Bundan başqa, energetika, nəqliyyat, kibertəhlükəsizlik, təhsil, maliyyə bazarının tənzimlənməsini, həmçinin qiymətli metalların dövriyyəsini əhatə edən ikitərəfli sənədlərdən ibarət sanballı zərf imzalanıb. Qarşılıqlı iqtisadi-ticari fəaliyyətin davamlı inkişafını və əmtəə dövriyyəsinin dayanıqlı artımını qeyd etdik. Gələcəkdə də əlaqələrin genişlənməsi, müştərək investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasına dair razılıq əldə etdik. Bu gün Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyəti çərçivəsində 3 birgə layihənin açılışı oldu və 8 təşəbbüsün həyata keçirilməsinə start verildi.





Nəqliyyat dəhlizlərinin inkişafı və ölkələrimizin tranzit potensialından səmərəli istifadə edilməsi məsələlərinə xüsusi diqqət yetirdik. Azərbaycanın Mərkəzi Asiyanı Avropa bazarları ilə birləşdirən Orta Dəhlizin əsas bəndi kimi mühüm rolunu qeyd etdik. Həmçinin energetika sahəsində perspektivli istiqamətləri və birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə etdik. Bu gün İssık-Kul gölü sahilində Azərbaycanın inşa etdiyi ilk 5 ulduzlu hotelin təntənəli açılışı olacaq.

Əminəm ki, bu layihə xalqlarımız arasında möhkəm dostluğun daha bir rəmzi olacaq və turizm potensialının inkişafına mühüm töhfə verəcək.

Beynəlxalq təşkilatlar çərçivəsində bizim səmərəli qarşılıqlı fəaliyyətimizi xüsusi qeyd etmək istərdim. Hörmətli İlham Heydər oğlunu VI Ümumdünya Köçəri Oyunlarının təntənəli açılış mərasimində, "ŞƏT+" Sammitində, həmçinin 2027-ci il oktyabrın 21-23-də keçiriləcək "Bişkek+25" ikinci Qlobal Dağ Sammitində iştiraka dəvət etdim.

Çıxışımın sonunda bugünkü danışıqların yekunları ilə bağlı məmnunluğumu ifadə etmək istərdim.

Hörmətli İlham Heydər oğlu, məzmunlu fikir mübadiləsinə, Qırğızıstan-Azərbaycan münasibətlərinin inkişafına şəxsi diqqətinizə və xalqlarımız arasında dostluğun möhkəmlənməsinə daimi sadiqliyinizə görə Sizə minnətdaram. Əldə olunan razılaşmalar Qırğızıstanın və Azərbaycanın müttəfiqlik münasibətlərinin gələcəkdə də dərinləşməsinə qarşılıqlı səyləri təsdiqləyir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

\- Hörmətli Sadır Nurqojoyeviç.

Əziz dostlar.

Hörmətli cənab Prezident, əvvəlcə, Qırğızıstana dövlət səfərinə dəvət etdiyinizə, mənə qardaş Qırğızıstan torpağında göstərilən ənənəvi qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu gün biz Sizinlə dövlətlərarası münasibətləri ən yüksək səviyyəyə qaldırdıq, qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsinə birgə səyləri bir daha nümayiş etdirdik.

Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik.

(Ardı 4-cü səhifədə)

# Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri



(Əvvəli 3-cü səhifədə)

Siz qeyd etdiyiniz kimi, bu gün imzalanan sənədlər zərfi qarşılıqlı fəaliyyətimizin geniş sferasını nümayiş etdirir. Əminəm ki, səfərimin nəticələrinə görə əldə olunan razılaşmalar da əvvəlkilər kimi uğurla həyata keçiriləcək.

Bu gün biz birgə Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılıq əldə etdik. Əminəm ki, bu da son hədd deyil, çünki Fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir.

Həmçinin bu gün həmkarlarımızla bizim birgə qərarımız olan "Bakı" hotelinin açılışında da iştirak edəcəyik. Biz çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan dövlətinin vəsaiti ilə inşa edilib və "Bakı" adını daşıyır.

Biz, həmçinin Qarabağın bərpasına göstərilən kömək üçün daim minnətdarlığımızı ifadə edirik. Sizinlə birlikdə Ağdam rayonunda "Manas" adını daşıyan məktəbin açılışında iştirak etdik. Bu, Qırğız xalqının 30 il ərzində işğaldan zərər çəkən Qarabağın bərpası işinə böyük töhfəsi oldu.

Bizi tarix, mədəniyyət, xalqlarımızın görkəmli nümayəndələrinə hörmət ilə bağlı çox şey birləşdirir. Biz Sizinlə, həmçinin Bakıda Çingiz Aytmatovun abidəsini və onun adını daşıyan parkın açılışını etdik. Bu yerlər, həmçinin Çingiz Aytmatovun həyatı və fəaliyyəti ilə bağlıdır. Bu gün görüş keçirdiyimiz ev də onunla bağlıdır və divarlarda onun portreti var. Bütün bunlar bizim birbirimizə yaxınlaşmaq səylərimizi nümayiş etdirir.

Bir neçə il əvvəl Sizinlə birlikdə Bişkekdə Qırğızıstan-Azərbaycan dostluğu parkının açılışını da unutmayacağam. Bu park da birgə əməkdaşlığımızın paytaxtdakı kiçik guşəsidir.

Bu gün bizim danışdığımız humanitar əlaqələr - Qırğızıstanda Azərbaycanın, Azərbaycanda isə Qırğızıstanın Mədəniyyət Günləri müsbət ab-hava yaradır, ortaq köklərə malik və bir neçə beynəlxalq strukturda birləşmiş xalqlarımızın necə yaxın olduğunu bir daha nümayiş etdirir.

Həmçinin Sizə, Mərkəzi Asiya ölkələrinin digər prezidentlərinə Azərbaycanın Mərkəzi Asiya Məşvərət görüşlərinə tamhüquqlu üzv qəbul olunmasına görə təşəkkürümü bildirmək istərdim.

Hazırda o, "Mərkəzi Asiyanın və Azərbaycanın dövlət liderlərinin görüşü" adlanır. Növbəti görüş bir müddətdən sonra keçiriləcək. Belə xoş münasibətə və bu yüksək mükafata görə bir daha təşəkkürümü bildirirəm.

Öz tərəfimdən Sizi uyğun hesab etdiyiniz vaxtda Azərbaycana yenidən dövlət səfərinə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

İyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.

Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çolpon-Ata şəhərindəki Konqres Mərkəzinə gəlib.

Qırğızıstan Prezidenti Sadır Japarov dövlətimizin başçısını və görüşdə iştirak edən digər prezidentləri qarşılayıb.

Azərbaycanın, Qırğızıstanın, Özbəkistanın, Qazaxıstanın, Tacikistanın və Türkmənistanın dövlət başçıları birgə foto çəkdiriblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Sadır Nurqojoyeviç.
Hörmətli həmkarlar.

Əvvəlcə, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşündə iştirak etmək üçün dəvətə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirirəm. Mən dünəndən Qırğızıstanda səfərdəyəm və ilk növbədə ölkənin sosial-iqtisadi inkişafında böyük uğurlara, həmçinin İssık-Kul gölünün ətrafındakı ərazinin necə dəyişməsinə, kurorta və beynəlxalq səviyyəli turizm istiqamətinə çevrilməsinə görə Qırğızıstan Prezidentini bir daha təbrik etmək istərdim.

Eyni zamanda, Qırğızıstanda dövlət səfərindəyəm. Bu gün həmkarım Sadır Nurqojoyeviç ilə ikitərəfli qarşılıqlı fəaliyyətimizin geniş gündəliyinə dair ətraflı müzakirələr apardıq. İkitərəfli əlaqələrin uğurlu inkişafını müəyyənləşdirəcək böyük sənədlər zərfi imzalandı. Amma imzalanan sənədlər arasında müttəfiqlik münasibətləri haqqında Müqaviləni xüsusi qeyd etmək istərdim. Bu, iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran qarşılıqlı fəaliyyətin ən yüksək dərəcəsidir.

Onu da qeyd etmək istərdim ki, iki qardaş ölkə arasında iqtisadi-ticari münasibətlərin uğurla inkişafı məni sevindirir. Bu gün imzaladığımız sənədlərdən biri də birgə Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitlərinin 100 milyon dollardan 200 milyon dollara çatdırılmasını nəzərdə tutur. Görülən işlər, birgə Fondun maliyyələşdirilməsi çərçivəsində artıq həyata keçirilən layihələr haqqında bizə məlumat verildi. Bir neçə müəssisə artıq fəaliyyət göstərir, amma potensial da kifayət qədər böyükdür.

Biz, həmçinin çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan tərəfindən inşa edilib. "Bakı" hoteli qonaqları qəbul etməyə hazırdır və şadam ki, biz bu böyük turizm mərkəzinin açılışında birlikdə iştirak edəcəyik.

Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Sadəcə qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib.

Həmçinin qeyd etmək istərdim ki, mən bu formatın tamhüquqlu üzvü qismində məşvərət görüşündə ilk dəfədir iştirak edirəm. Mərkəzi Asiyanın bütün dövlət başçılarına Azərbaycanın bu qrupun tamformatlı tərkibinə daxil edilməsinə dair keçən il Özbəkistanda qəbul edilmiş tarixi qərara görə bir daha minnətdarlığımı bildirmək istərdim. Bu görüşə qədər mən fəxri qonaq qismində qatılırdım, indi isə komandanın tamhüquqlu üzvü kimi iştirak edirəm.

Bütün həmkarlarıma bir daha təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığı daha da inkişaf etdirmək, ölkələrimizi və xalqlarımızı daha sıx yaxınlaşdırmaq üçün bütün səylərini göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra digər prezidentlər çıxış ediblər.

Görüşün sonunda Çolpon-Ata Bəyannaməsi imzalanıb.



* * *

İyulun 31-də Qırğızıstanda, İssık-Kul gölünün sahilində beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçılarına və birinci xanımlara İssık-Kul vilayətinin Kara-Oy kəndində tikilmiş mehmanxana barədə məlumat verib.

Bildirildi ki, "Baku Resort & Spa" "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında" 2023-cü ildə Bişkekdə imzalanmış saziş çərçivəsində inşa olunub.



Ümumilikdə 17 hektardan çox ərazini əhatə edən mehmanxana memarlıq, mədəniyyət, incəsənət, qastronomiya, sağlamlıq və istirahətin ahəngdar şəkildə bir araya gəldiyi nadir məkan kimi layihələndirilib.

Kompleksdə 330 qonağın qəbuluna imkan verən 111 otaq və 10 kottec var.

Mehmanxanada bir hissəsi Azərbaycan vətəndaşları olmaqla ilkin mərhələdə 255 nəfərin iş yeri ilə təmin edilməsi nəzərdə tutulub.

Sağlamlıq və istirahət mehmanxana konsepsiyasının əsas istiqamətlərindəndir. Burada ilboyu istirahət üçün nəzərdə tutulmuş qapalı və açıq hovuzlar, akvapark və çimərlik də qonaqların ixtiyarına veriləcək.

Qastronomiya mehmanxananın fəaliyyətinin ayrılmaz hissəsini təşkil edir. Burada Azərbaycan kulinariya ənənələrinin zənginliyi nümayiş olunacaq. Mehmanxanadakı müxtəlif restoranlarda ənənəvi Azərbaycan səhər yeməkləri də daxil olmaqla, milli mətbəximizdən təamlar təqdim ediləcək.

Hər yaş qrupundan olan qonaqlar üçün maraqlı istirahət imkanları yaratmaq məqsədilə kurort geniş əyləncə infrastrukturu ilə təchiz olunub, bolinq və digər əyləncə oyunları zonası, kino zalı, müxtəlif idman növləri üçün nəzərdə tutulmuş çoxfunksiyalı açıq idman meydançası yaradılıb.

Mehmanxanada beynəlxalq konfranslar, korporativ görüşlər, biznes və sosial tədbirlərin təşkili üçün müasir şərait var.

Burada Bakının gözəlliyi və Azərbaycanın zəngin mədəni irsini əks etdirən elementlər qonaqlara milli ənənələrlə müasirliyin harmoniyasını yaşadır.

Dünyanın ikinci ən böyük dağ gölü və Qırğızıstanın ən qiymətli təbiət incilərindən hesab olunan İssık-Kulun sahilində yerləşməsi, həmçinin bu ərazinin yüksək turizm potensialı mehmanxananın kompleksinin əhəmiyyətini daha da artırır.

Möhtəşəm Tyan-Şan dağları ilə əhatə olunan bu bölgə gözəl təbiəti, minerallarla zəngin suları, həmçinin ilboyu istirahət, sağlamlıq və mədəni turizm üçün əlverişli imkanları ilə tanınır.

"Baku Resort & Spa"nın fəaliyyətə başlaması İssık-Kul regionunda turizm sektoruna mühüm töhfə verməklə yanaşı, bölgənin turizm məkanı kimi mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

Bu layihənin icrası, eyni zamanda, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafına töhfə verir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri iyulun 31-də başa çatıb.

Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğız Respublikasının Baş naziri Adılbek Kasımaliyev və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Bakıda Çin Xalq Azadlıq Ordusunun yaranmasının 99-cu ildönümü qeyd edilib

Bakıda Çin Xalq Azadlıq Ordusunun yaranmasının 99-cu ildönümü qeyd olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Çinin Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib ki, 1927-ci ildə yaradıldığı gündən etibarən Çin Xalq Azadlıq Ordusu ölkənin dövlət suverenliyinin, ərazi bütövlüyünün, təhlükəsizliyinin və inkişaf maraqlarının qorunması istiqamətində üzərinə düşən vəzifələri yerinə yetirib, eyni zamanda, qlobal sülhün və sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayıb.

Səfir qeyd edib ki, Çin ordusu BMT-nin sülhməramlı əməliyyatlarında, beynəlxalq humanitar yardım və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması missiyalarında fəal iştirak edir, beynəlxalq hərbi mübadilə və əməkdaşlığı davamlı şəkildə genişləndirir.

Lu Mey vurğulayıb: "Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. İki ölkə başçısının strateji rəhbərliyi ilə Çin-Azərbaycan münasibətləri möhkəm inkişaf dinamikasını qoruyub saxlayır, müxtəlif sahələr üzrə əməkdaşlıq davamlı şəkildə irəliləyir və xalqlarımızın rifahının yüksəldilməsinə xidmət edir".






Onun sözlərinə görə, hərbi əməkdaşlıq ikitərəfli strateji tərəfdaşlığın mühüm tərkib hissəsidir və Çin ordusu Azərbaycan Silahlı Qüvvələri ilə qarşılıqlı əlaqələri daha da dərinləşdirməyə hazırdır.

Səfir əlavə edib ki, Çin Azərbaycanla birlikdə iki ölkə rəhbərləri arasında əldə olunmuş mühüm razılaşmaların həyata keçirilməsi, "Bir kəmər, bir yol" təşəbbüsü, süni intellekt sahəsində əməkdaşlıq, eləcə də regionda və dünyada sülhün və inkişafın təşviqi istiqamətində birgə fəaliyyətini davam etdirəcək.

Çinin Azərbaycandakı hərbi attaşesi, polkovnik Sun Çjun bildirib ki, Çin Xalq Azadlıq Ordusu ölkə tarixinin taleyüklü dövründə formalaşıb və ötən illər ərzində Çinin müstəqilliyinin möhkəmləndirilməsinə, milli inkişafına və davamlı sülhün təmin olunmasına mühüm töhfələr verib.

"Bu gün Çin Xalq Azadlıq Ordusu modernləşmənin yeni mərhələsinə qədəm qoyub və əsas missiyası ölkənin suverenliyini, təhlükəsizliyini və inkişaf maraqlarını qorumaqla yanaşı, regional və qlobal sülhün möhkəmləndirilməsinə töhfə verməkdir", - deyə Sun Çjun vurğulayıb.

O qeyd edib ki, son illərdə Çin ordusu dünyanın müxtəlif ölkələrinin silahlı qüvvələri ilə əməkdaşlığı genişləndirib, BMT-nin sülhməramlı əməliyyatlarında, dəniz quldurluğuna qarşı beynəlxalq missiyalarda, humanitar yardım və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması tədbirlərində fəal iştirak edib.



"Bu fəaliyyət Çinin digər ölkələrlə birlikdə ümumi təhlükəsizlik çağırışlarının həllinə töhfə vermək əzmini nümayiş etdirir", - deyə hərbi attaşe bildirib.

Sun Çjun vurğulayıb ki, Çin ilə Azərbaycan arasında hərbi əməkdaşlıq yüksəksəviyyəli qarşılıqlı səfərlər, peşəkar dialoq və hərbi kadrların hazırlanması vasitəsilə ardıcıl inkişaf edir.

"Bu mübadilə qarşılıqlı anlaşmanı daha da möhkəmləndirib və gələcək əməkdaşlıq üçün etibarlı zəmin yaradıb", - deyə o əlavə edib.

Hərbi attaşe Azərbaycanın regional rolunu yüksək qiymətləndirərək bildirib: "Avropa ilə Asiyanın kəsişməsində yerləşən mühüm ölkə kimi Azərbaycan regional inkişaf və sabitliyə dəyərli töhfələr verir. Biz əməkdaşlığımızı daha da dərinləşdirmək, regionda və dünyada sülhə və rifaha yeni töhfələr vermək üçün Azərbaycanla birgə işləməyi səbirsizliklə gözləyirik".

# Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası yolunda növbəti uğurlu "Qisas" əməliyyatı

Azərbaycan Ordusunun döyüş hazırlığı dövlətimizin müdafiə qüdrətinin möhkəmləndirilməsində əsas amillərdən biridir. Müasir dövrün hərbi çağırışları ordudan yüksək peşəkarlıq, çeviklik və qətiyyət tələb etdiyindən şəxsi heyətin hazırlıq səviyyəsi daim diqqət mərkəzində saxlanılır. Planlı şəkildə təşkil olunan təlimlərdə hərbi qulluqçuların nəzəri bilikləri və praktiki vərdişləri təkmilləşdirilir, mürəkkəb şəraitdə düzgün qərarqəbuletmə qabiliyyəti formalaşdırılır. Məşğələlərdə müasir silah və texnikanın səmərəli tətbiqinə xüsusi yer verilməsi, komandirlərin idarəetmə bacarıqlarını artırmaqla yanaşı, verilən tapşırıqları yüksək səviyyədə icra etməyə hazır olduğunu nümayiş etdirir.

Bu davamlı inkişaf prosesi Azərbaycan Ordusunun hərbi potensialını sistemli şəkildə gücləndirir. Təlimlər zamanı real döyüş şəraitinə yaxın mühit yaradılaraq hərbi qulluqçuların fiziki dözümlülüyü, taktiki düşüncəsi və mənəvi-psixoloji dayanıqlığı kompleks şəkildə inkişaf etdirilir. Qarşılıqlı koordinasiya və çevik manevr vərdişlərinin modern texnologiyaların tətbiqi ilə birlikdə möhkəmləndirilməsi hazırlıq prosesinin keyfiyyətini gözlə görüləcək dərəcədə yüksəldir. Komandir heyətinin planlaşdırma təcrübəsi isə hərbi qulluqçuların üzərinə düşən vəzifələri inamla yerinə yetirməsinə zəmin yaradır.

Mütəmadi olaraq keçirilən təlim proqramları həm də müxtəlif qoşun növlərinin birgə fəaliyyətini praktiki olaraq sınaqdan keçirməyə imkan verir. Müasir döyüş əməliyyatlarının tələbləri nəzərə alınmaqla keçirilən bu məşğələlər şəxsi heyətin intizamını, məsuliyyət hissini və döyüş əzmini artırır. Müasir silah və hərbi texnikadan səmərəli istifadə vərdişlərinin aşılanması ordunun operativ imkanlarını genişləndirərək istənilən şəraitdə çevik və qətiyyətli addımlar atmasını təmin edir.



Mürəkkəb ssenarilər üzrə aparılan hazırlıq tədbirləri vahid plan əsasında icra olunaraq şəxsi heyətin fəaliyyətini tam əlaqələndirir. Döyüş vərdişlərinin ardıcıl təkmilləşdirilməsi və yeni yanaşmaların tətbiqi ordunun ümumi gücünü və etibarlılığını möhkəmləndirir. Təlimlərdə qazanılan zəngin praktiki biliklər real döyüş meydanında uğurlu nəticələrin əldə edilməsinə xidmət edən əsas dayaq kimi çıxış edir.

Döyüş bacarıqları ilə yanaşı, Azərbaycan Ordusunun şəxsi heyətinin vətənpərvərlik ruhu və milli dəyərlərə bağlılığı müdafiə qüdrətimizin əsasını təşkil edir. Dövlətçilik ənənələrinə sadiqlik, Hərbi And və yüksək mənəvi iradə hər bir hərbi qulluqçunun xidməti vəzifəsini məsuliyyətlə icra etməsini şərtləndirir. Hərbi intizam və qarşılıqlı etimad mühiti çətin şəraitdə belə tapşırıqların qətiyyətlə yerinə yetirilməsinə zəmin yaradır.

Hazırlıq prosesində zabit heyətinin peşəkarlığı və idarəetmə bacarıqları da mühüm rol oynayır. Zabitlər öz bilik və zəngin təcrübələrini tabeliyində olan şəxsi heyətə aşılayaraq orduda təşkilatçılığın və komanda ruhunun yüksəlməsini təmin edirlər. Mürəkkəb şəraitdə dəqiq rəhbərlik və çevik qərarvermə qabiliyyəti nümayiş etdirən komandir heyəti şəxsi heyətdə inam və qələbə əzmini daha da möhkəmləndirir.

Məhz bu məqsədyönlü hazırlıq tədbirləri, yüksək vətənpərvərlik ruhu və komandir heyətinin peşəkar idarəetməsi 44 günlük Vətən müharibəsində tarixi Qələbənin qazanılmasında həlledici amil oldu. Uzun illər ərzində mənimsənilən döyüş bacarıqları real əməliyyat şəraitində özünü doğrultdu və yeni silahlardan səmərəli istifadə olunması əməliyyatların uğurunu təmin etdi. Azərbaycan Ordusu hərbi intizam və çevik koordinasiya sayəsində qarşıya qoyulan bütün tapşırıqları fədakarlıqla icra edərək gücünü bütün dünyaya nümayiş etdirdi.

Qazanılan Qələbə xalqın birliyi, dövlətin qətiyyətli siyasəti və ordunun sarsılmaz iradəsinin parlaq təcəssümünə çevrildi. Hər bir əməliyyatın dəqiq planlaşdırılması işğal altındakı torpaqlarımızın azad olunmasını təmin etməklə yanaşı, ordu quruculuğu sahəsində görülən işlərin nə dərəcədə səmərəli olduğunu göstərdi.

Bu tarixi zəfər yolu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq başlayan əks-hücum əməliyyatları ilə start götürdü. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu qısa müddətdə strateji yüksəklikləri nəzarətə götürdü, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini və Hadrut qəsəbəsini işğaldan azad etdi. Müharibənin zirvə nöqtəsi olan Şuşanın azad olunması düşmənin müqavimətini tamamilə sarsıtdı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi.

Müharibənin gedişində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın və ordunun haqq işini beynəlxalq müstəvidə inamla müdafiə etdi. Dövlət başçısının qətiyyətli bəyanatları və "Qarabağ Azərbaycandır!" nidası milli həmrəyliyin və qələbə əzminin simvoluna çevrildi. Ali Baş Komandanın uzaqgörən rəhbərliyi, ordumuzun peşəkarlığı və xalqın birliyi tarixi Zəfəri şərtləndirən başlıca sütunlar oldu.

44 gün davam edən hərbi əməliyyatların uğurla başa çatması illərdir gözlənilən ədalətin bərpası idi. Azad olunan torpaqlarda üçrəngli bayrağımızın dalğalanması xalqımıza sonsuz qürur bəxş etdi. Bu Zəfər Azərbaycanın müstəqillik tarixinin ən şərəfli səhifəsi kimi milli birliyimizi daha da möhkəmləndirdi.

Tarixi Qələbənin təntənəli göstəricisi olaraq 2020-ci il dekabrın 10-da Bakı şəhərində Zəfər Paradı keçirildi. Parad zamanı çıxış edən Ali Baş Komandan İlham Əliyev hərbçilərin şücaətini yüksək qiymətləndirərək "Dəmir yumruq yerindədir" mesajı ilə dövlətimizin qüdrətini və sarsılmaz iradəsini bir daha bəyan etdi. Nümayiş olunan hərbi texnika ordunun yüksək hazırlığını və qalib xalqın qürurunu bütün dünyaya göstərdi.

Bununla belə, müharibədən sonra sülhün təmin olunması istiqamətində addımlar atılsa da, Ermənistan tərəfi və qanunsuz erməni silahlı dəstələri yaranmış yeni reallıqları qəbul etməyərək təxribatlarını davam etdirdilər. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq 2022-ci ilin avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bu təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisinə aid edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdilər.

Hərbi qulluqçumuzun şəhid olması və qanunsuz birləşmələrin təxribatçı cəhdləri Azərbaycan Ordusunu dərhal adekvat addımlar atmağa vadar etdi. Keçirilən "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüldü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi, bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edildi.

(Ardı 7-ci səhifədə)

# Dövlət İmtahan Mərkəzində keçirilən sərgidə Milli Müdafiə Universitetinin təqdimatı xüsusi maraq doğurub



Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişaf etdirilməsi, döyüş qabiliyyətinin daha da yüksəldilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və peşəkar hərbi kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər son illərdə öz bəhrəsini verir. Xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra əldə olunan döyüş təcrübəsinin öyrənilməsi və Azərbaycan Ordusunun qarşısında dayanan yeni vəzifələrə uyğunlaşdırılması istiqamətində mühüm islahatlar həyata keçirilib. Aparılan islahatların mühüm istiqamətlərindən biri hərbi təhsil sisteminin müasir tələblər əsasında yenidən qurulmasıdır. Çünki güclü ordunun formalaşması yalnız müasir silah və texnikanın mövcudluğu ilə deyil, həmin imkanlardan peşəkar şəkildə istifadə edə bilən, yüksək hazırlıqlı, savadlı və müasir düşüncəli hərbi qulluqçuların yetişdirilməsi ilə bilavasitə bağlıdır. Bu baxımdan hərbi təhsil sisteminin təkmilləşdirilməsi, kadr hazırlığının vahid sistem daxilində təşkili Azərbaycan Ordusunun inkişaf strategiyasında mühüm yer tutur. Bu istiqamətdə atılmış ən mühüm addımlardan biri Milli Müdafiə Universitetinin yaradılmasıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 5 mart 2022-ci il tarixli, müvafiq Fərmanı ilə Milli Müdafiə Universiteti (MMU) yaradılıb. Universitetin yaradılması ilə hərbi təhsil, hərbi elm və kadr hazırlığının daha səmərəli və vahid idarəetmə mexanizmi əsasında təşkil olunması üçün mühüm institusional əsas formalaşdırılıb. Milli Müdafiə Universiteti hazırda Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı ali təhsil müəssisəsi kimi fəaliyyət göstərir. Universitetin tabeliyində Heydər Əliyev adına Hərbi İnstitut, Hərbi İdarəetmə İnstitutu, Hərbi Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey, Heydər Əliyev adına Hərbi Lisey və digər hərbi təhsil müəssisələri fəaliyyət göstərir. Hərbi təhsilin orta ixtisas pilləsinin inkişaf etdirilməsi də diqqətdən kənarda qalmayıb. Milli Müdafiə Universitetinin tabeliyində Bakı, Gəncə və Naxçıvan Hərbi Kolleclərinin yaradılması ilə hərbi təhsilin müxtəlif pillələrini əhatə edən vahid sistemin formalaşdırılması istiqamətində daha bir mühüm addım atılıb. Beləliklə, hərbi təhsil sistemi gənclərin ilkin hazırlığından başlayaraq orta ixtisas, ali təhsil, magistratura, əlavə təhsil və elmi kadr hazırlığınadək geniş imkanları özündə birləşdirən ardıcıl mexanizmə çevrilib.



MMU-da tədris prosesi də müasir yanaşmalar əsasında qurulur. Burada kursantların yalnız nəzəri biliklərə yiyələnməsi deyil, praktiki hazırlığının artırılması, xarici dil biliklərinin inkişaf etdirilməsi, liderlik və idarəetmə bacarıqlarının formalaşdırılması, müasir texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi əsas istiqamətlərdəndir. Kursantların beynəlxalq hərbi təhsil müəssisələrində təhsil və təlim proqramlarında iştirakı isə onların dünyagörüşünün və peşəkar hazırlığının daha da zənginləşdirilməsinə xidmət edir. Bütün bunlar hərbi sahəyə maraq göstərən gənclərin MMU-ya diqqətinin artmasına səbəb olan əsas amillərdəndir. Bu gün universitetdə müxtəlif istiqamətlər üzrə kadr hazırlığı həyata keçirilir. Heydər Əliyev adına Hərbi İnstitutda bakalavriat səviyyəsində, hərbi kolleclərdə orta ixtisas səviyyəsində, digər struktur bölmələrində isə müxtəlif səviyyələr üzrə hərbi təhsil və hazırlıq imkanları təqdim olunur.



Məhz belə bir dövrdə gənclərin hərbi təhsil imkanları ilə yaxından tanış olması baxımından keçirilən sərgilərin əhəmiyyəti böyükdür. Belə sərgilərdən biri Dövlət İmtahan Mərkəzində keçirildi.

Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə keçirilən ali təhsil müəssisələrinin sərgisində MMU-nun stendi ilə yaxından tanış olduq. Sərgi Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda keçirilirdi. Tədbirdə müxtəlif dövlət və özəl ali təhsil müəssisələri ilə yanaşı, Milli Müdafiə Universiteti də öz imkanlarını təqdim edirdi. Sərginin keçirilməsində əsas məqsəd ali məktəblərin abituriyentlərə təqdim etdiyi təhsil imkanları, ixtisaslar, qəbul qaydaları və digər məsələlər barədə gəncləri məlumatlandırmaqdır. Bu baxımdan MMU-nun sərgidə iştirakı hərbi təhsil almaq istəyən gənclər üçün xüsusi əhəmiyyət daşıyırdı. Sərgi salonunda ali təhsil müəssisələrinin bir-birindən fərqli stendləri arasında Milli Müdafiə Universitetinin təqdimatı da iştirakçıların diqqətini cəlb edirdi. Stendə yaxınlaşan gənclər və valideynlər universitetin təhsil imkanları, qəbul prosesi, ixtisaslar, kursantların tədris və praktiki hazırlığı, sosial-məişət şəraiti barədə ətraflı məlumat əldə edirdilər. MMU-nun nümayəndə heyəti də öz təcrübələrini bölüşür və gəncləri maraqlandıran sualları cavablandırırdılar.

Stenddə həmsöhbət olduğumuz kursantlardan biri Əhmədov Rəvan Mürvət oğludur. 2006-cı il təvəllüdlü kursant Əhmədov Rəvan 2021-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub, 2023-cü ildə həmin təhsil müəssisəsini bitirib və elə həmin il Heydər Əliyev adına Hərbi İnstitutda təhsil almağa başlayıb. Hazırda "Avtomatlaşdırılmış idarəetmə sistemi" ixtisası üzrə təhsil alır. Kursant Əhmədov Rəvanla söhbət zamanı onun seçdiyi peşəyə münasibətində xüsusi bir inam hiss olunurdu. O, uşaqlıqdan hərbi sahəyə marağının olduğunu və bu gün özünü arzuladığı yerdə gördüyünü bildirərək dedi: "Uşaqlıqdan hərbi sahəyə marağım olub. Bu gün burada Milli Müdafiə Universitetini təmsil etmək mənim üçün çox qürurverici hissdir. Mən hazırda arzu etdiyim təhsil müəssisəsindəyəm. MMU-nun tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində ənənəvi dərslərlə yanaşı, xarici dil biliklərimizi də təkmilləşdiririk. Müxtəlif xarici ölkələrə səfərlərə, yarışlara və tədbirlərə göndəririlik. Bu, bizim üçün həm maraqlı, həm də böyük təcrübədir. Sosial-məişət şəraitimiz və təminatlarımız da yüksək səviyyədədir. Bir sözlə, dövlətimiz bizim üçün hər cür şərait yaradıb. İnanıram ki, aldığım hərbi təhsillə gələcəkdə peşəkar zabitlərdən olacağam".

Gənc kursantın da vurğuladığı kimi hərbi təhsil alan gənclərə həm hərb sənətinin sirləri öyrədilir, həm də onların xarici dil bilikləri inkişaf etdirilir. Eləcə də, ölkə daxilində və xaricində müxtəlif tədbirlərdə və yarışlarda iştirak edirlər ki, bu da kursantların dünya görüşünün, intellektual səviyyələrinin artırılmasına və



onların hərtərəfli inkişaf etməsinə xidmət edir.

MMU-nun stendində görüşdüyümüz digər kursant Ağayeva Xədicə İlham qızı da uşaqlıqdan hərbçi olmaq arzusunda olduğunu bildirdi. Onun üçün hərbi forma yalnız geyim deyil, seçdiyi peşəyə və Vətənə xidmətə münasibətin ifadəsidir. Həmçinin o qeyd etdi ki, yenidən xanımların kursant ola bilməsi sevindirici haldır. "Uşaqlıqdan hərbçi olmaq istəmişəm. Hərbi mundiri geyinmək mənim üçün şərəfdir. Bu gün öz istədiyim peşəni seçərək arzularımın arxasınca getmişəm. Hərbi peşəsini seçmək istəyən xanımlara da tam əminliklə deyə bilərəm ki, seçimlərində yanılmayacaqlar. Burada bir gəncin hərtərəfli inkişaf etməsi üçün arzuolunan şərait yaradılıb. Peşəkar müəllim heyəti bizə ənənəvi dərslərlə yanaşı, praktiki məşğələlər də keçir. Hər bir kursantın şəxsi inkişafı, qayğıları diqqət mərkəzində saxlanılır. İnanıram ki, təhsilimi uğurla başa vuraraq gələcəkdə xidmətimi uğurla davam etdirəcəyəm".

Müsahibim Xədicə Ağayevanın fikirlərini, gənc xanımların hərbi təhsilə olan marağının da artdığını göstərir. Onun seçdiyi yol həm şəxsi arzusunun, həm də hərbi sahədə özünü görən gənclər üçün yaradılan imkanların nəticəsidir.

Sərgidə MMU-nu təmsil edən kursantlardan biri də Vəlicanova Nəzrin Sahil qızıdır. 2008-ci il təvəllüdlü kursant Nəzrin Vəlicanova 2025-ci ildə Hərbi instituta qəbul olunub. Söhbət zamanı gənc kursantın təhsil aldığı müəssisəyə böyük rəğbət bəslədiyi aydın hiss olunurdu. Dövlət İmtahan Mərkəzinin keçirdiyi sərgidə Milli Müdafiə Universitetini qürurla təmsil etdiyini bildirən Nəzrin, bildirdi ki, gənclərlə görüşmək, onlara hərbi təhsilimiz haqqında məlumat vermək mənim üçün çox sevindirici və fərəhləndiricidir.

Sərgidə kursantlarla yanaşı, təcrübəli hərbi qulluqçular və pedaqoji heyətin nümayəndələri də iştirak edirdilər. Həmsöhbətim zabit Axundov Əzim Kənan oğlu 2010-2013-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2013-2017-ci illərdə isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. İxtisasca "pilot" olan hərbi qulluqçu xidmət illərində müxtəlif beynəlxalq təhsil və təlim proqramlarında iştirak edib. O, Pakistan Hərbi Hava Qüvvələri Akademiyasında təhsil alıb. Almaniyada NATO təlimatçı kursunu, NATO-nun Müdafiə Təhsilinin Genişləndirilməsi (DEEP) distant təhsil proqramını uğurla başa vurub. Eyni zamanda, ADA Universitetində "Təlim və tədrisin təşkili və metodikası" ixtisası üzrə magistr dərəcəsi əldə edib. Zabit Əzim Axundov kursantların ilkin uçuş hazırlığının keçirilməsində iştirak edir. Onun müxtəlif ölkələrdə əldə etdiyi təhsil və təlim təcrübəsinin gənc kursantlara ötürülməsi hərbi təhsildə praktiki təcrübə ilə nəzəri biliklərin vəhdətinin əhəmiyyətini göstərir.

Sərgidə MMU-nun stendinə maraq göstərənlərdən Nəcəfzadə Zeynəb Rauf qızı və anası Nəcəfova Sədaqət Məmmədəli qızının düşüncələrini qeyd etdik.

Onlar bu təhsil ocağının stendinin xüsusi diqqət cəlb etdiyini bildirdi: "Kursant və zabitlərin keçdiyi dərslər və təlimlərlə bağlı nümayiş etdirilən görüntülər bizi çox sevindirdi. Qardaşım da Milli Müdafiə Universiteti haqqında çox maraqlanırdı. Elə burada MMU-nun nümayəndələrindən onun üçün ətraflı məlumat aldım. Təhsil prosesi, yaradılan şərait və qəbul imkanları barədə bizi maraqlandıran suallara cavab verdilər. İnşallah, gələn il qardaşımı Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisəsində görmək istəyərdim".

**(Ardı 8-ci səhifədə)**

(Əvvəli 1-ci səhifədə)

## 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan dili Günü

# Azərbaycan dili bizim milli sərvətimizdir

**Ümummilli Lider Heydər ƏLİYEV:**

***"Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb".***

Əsrlər boyu Azərbaycan ərazisi müxtəlif imperiyaların tərkibində və ya təsir dairəsində olmuşdur. İslamın qəbulundan sonra ərəb dili din və elm, fars dili isə uzun müddət poeziya və saray dili rolunu oynamışdır. Azərbaycan dili tarixi boyu müxtəlif siyasi təzyiqlərə, assimilyasiya cəhdlərinə və əlifba dəyişikliklərinə məruz qalsa da, öz milli kimliyini və zənginliyini qoruyub saxlaya bilmişdir. Bu, Azərbaycan dilinin lüğət tərkibinə ciddi təsir etsə də, dilin qrammatik əsasını sarsıda bilməmişdir. XVI əsrdə Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan dilinin mövqeyi möhkəmlənərək rəsmi və dövlətlərarası yazışmalarda işlədilməyə başlandı. Şah İsmayılın 23 iyun 1512-ci il tarixinə aid fərmanı Azərbaycan dilində verilmiş ilk dövlət fərmanıdır. Azərbaycan dili Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində həmin ənənə uzun müddət davam edə bilməmişdir. Günümüzə qədər Səfəvilər dövrünə aid edilən Azərbaycan dilində yazılmış 11 sənəd aşkar edilmişdir. Bu da Səfəvi dövlətinin bütün hakimiyyəti boyunca Azərbaycan dilinin dövlətlərarası yazışmada işlənildiyini sübut edir. Bir çox sənədin üzə çıxarılmadığı da güman edilir. Aşkar edilən sənədlərin xarici ölkə arxivlərindən və ya xarici ölkələrdəki muzey, şəxsi kitabxana və s. kimi yerlərdən tapılması yeni sənədlərin aşkar edilməsi prosesini çətinləşdirir.

Müstəqil dövlətin mühüm atributlarından olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət Hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Bu qərara əsasən, ölkədə məhkəmə, inzibati idarəçilik və digər vəzifələrin başında duranlara dövlət dilini lazımi səviyyədə öyrənənədək, hökumət müəssisələrində rus dilinin də işlənməsinə yol verilirdi. Lakin bu real şəraitdən doğan müvəqqəti tədbir olmuş və yalnız idarəçilikdə milli kadrların yetişməsinə qədər olan müddət üçün nəzərdə tutulmuşdur. 1918-ci il dekabrın 27-də Azərbaycan Xalq Cümhuriyyəti hərb (hərbiyyə) naziri Səməd bəy Mehmandarovun əmri ilə Azərbaycan-türk dili orduda da dövlət dili olaraq qəbul edilmişdir. Hökumət 1919-cu ilin fevral ayında Azərbaycan Milli Ordusunda türk dilində süvari qoşunları nizamnaməsinin təsdiqi haqqında qərar qəbul etmişdir.

Bugünkü gün də Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ana dilinin tətbiqi milli mənliyin, dövlətçilik ənənələrinin və vətənpərvərlik tərbiyəsinin mühüm tərkib hissəsidir. Hərbi Nizamnamələr, əmrlər və sərəncamlar yalnız Azərbaycan dilində tərtib olunur və icra edilir. Dilin dəqiq və aydın tətbiqi, döyüş tapşırıqlarının heç bir anlaşılmazlıq olmadan, vaxtında və düzgün yerinə yetirilməsini təmin edir. Əsgərlərin Azərbaycan dilində hərbi andiçməsi, hərbi hissələrdə Dövlət Himninin oxunması və milli qəhrəmanlarımızın şücaətlərinin ana dilində təbliğ edilməsi şəxsi heyətdə güclü vətənpərvərlik hissi formalaşdırır. Müasir Azərbaycan Ordusu inkişaf etdikcə, hərbi terminologiyamız da zənginləşir. Yad sözlərin və rus dilindən qalan köhnə hərbi qəliblərin təmizlənməsi, yerinə sırf Azərbaycan mənşəli hərbi terminlərin (bölük, taqım, manqa və s.) möhkəmlənməsi dilimizin hərbi qüdrətini göstərir.

Sovet İttifaqı daxilində bütün türk xalqlarının əlifbasının rus qrafikasına uyğunlaşdırılması siyasəti xalqların milli özünüdərk prosesinin qarşısını almaq və onları mərkəzə daha çox bağlamaq məqsədi güdürdü. XIX əsrdə Azərbaycanın şimalının Çar Rusiyasına birləşdirilməsindən sonra ciddi ruslaşdırma siyasəti başladı. Dövlət idarələrində və rəsmi yazışmalarda ana dili sıxışdırıldı. Rus dili "ittifaq dili" kimi ön plana çıxarıldı, ana dili isə məişət səviyyəsinə endirilməyə çalışıldı. Lakin M.F.Axundzadə, H.Zərdabi kimi ziyalıların fədakarlığı sayəsində milli mətbuat ("Əkinçi" qəzeti) və teatr vasitəsilə dil qorundu və inkişaf etdirildi. Dilin saflığı və milli haqları uğrunda mübarizə aparan Mikayıl Müşfiq, Hüseyn Cavid, Salman Mümtaz kimi onlarla ziyalı "pantürkist" damğası ilə güllələndi və ya sürgün edildi.




Azərbaycan ədəbi dilinin tarixində ən ağır sınaqları və yeni mərhələ sovet hakimiyyəti illərinə təsadüf edir. Cəmi bir neçə onillik ərzində xalqın əlifbası üç dəfə dəyişdirildi. Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədilə 1922-ci ildə Əlifba Komitəsi yaradıldı. Həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib edilməsi tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi.

1929-cu ildə ərəb qrafikasından latın, 1939-cu ildə isə Stalinin latın qrafikalı əlifbadan kiril əlifbası əsasında yaradılmış yeni Azərbaycan yazısına qəti və məcburi keçmək haqqında qərarı ilə qəfil kiril qrafikasına keçid oldu. Bu, həmin nəslin bir gecədə "savadsız" qalmasına və zəngin tarixi arxivlərdən qopmasına səbəb olan ağır mədəni travma idi. Beləliklə, 1924-cü ildən 1939-cu ilə qədər keçən on beş il ərzində xalqın yazı mədəniyyətinə bir-birinin ardınca iki ağır zərbə dəydi. Buna baxmayaraq, Azərbaycan dili çətinliklə də olsa, bütün bu illər ərzində yenə öz saflığını qoruya bildi.

Dilin rəsmi statusunun bərpası və dirçəlişi 1978-ci ildə Heydər Əliyevin siyasi iradəsi sayəsində mümkün oldu. Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə daxil edilməsi sovet rejimində imperiya mərkəzinə qarşı atılmış çox cəsarətli addım idi.

Ölkəmiz 1991-ci ildə öz dövlət müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili yenidən latın qrafikalı əlifbaya qayıtdı və tamhüquqlu dövlət dili statusunu möhkəmləndirdi. Tarixin bütün sınaqlarından, qadağalarından və çətinliklərindən keçən bu dil, bu gün öz müstəqil dövlətinin rəsmi dili kimi qürurla yaşayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi tədbirində çıxışında dediyi kimi: "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

Dil də torpaq kimidir, Vətən kimidir. O qorunmalıdır. Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad olunmuş torpaqlarımız qondarma adlardan qurtularaq öz əzəli adlarına geri döndü. Bu, ana dilimizin tarixi qələbəsi idi. Ana dili elə bir sərvətdir ki, onda hamının payı bərabərdir. Ana dilimizi sevmək, öyrənmək və gələcək nəsillərə ləyaqətlə çatdırmaq hər birimizin müqəddəs borcudur. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir.

Onu qorumaq isə hamımızın-ziyalının da, fəhlənin də, millət vəkilinin də, evdar qadının da, müəllimin, müğənninin, aktyorun, aparıcının-bir sözlə, hamımızın borcu, vəzifəsidir. Onu korlamağa heç kimin nə hüququ, nə də mənəvi haqqı var.

Zaman dəyişir, dünyada qlobal inkişaf prosesləri gedir. Bunun nəticəsində yeni-yeni sahələr və terminlər meydana gəlir. Elə terminlər və sahələr var ki, bunlar bütün dünyada yeni bir adla qəbul edildiyindən bizim dilimizə də daxil olması məqbul sayılır. Lakin dilimizdə onun qarşılığını tapmadan xarici dillərdən alınmış o qədər sözlər işlədilir ki, bunların çoxunu başa düşmək üçün lüğətdən axtarmalı olursan.

İnsan harada olursa-olsun, hansı ölkənin yollarında addımlayırsa-addımlasın, qəlbinin dərinliyində həmişə doğma dilinin səsini axtarır. Çünki ən şirin yuxularını öz ana dilində görür, ən səmimi dualarını öz ana dilində pıçıldayır. Ana dili bizə keçmişimizdən qalan ən kövrək və eyni zamanda, ən sarsılmaz mirasdır. Füzulinin qəzəllərindəki incəlik, Dədə Qorqudun qopuzundan süzülən mərdlik bu dilin səs tellərində yaşayır. Biz bu dildə "Ana", "Vətən" deməyi, bu dildə sevməyi öyrənirik. Bir milləti yox etmək üçün onun ordularını məğlub etmək şərt deyil, onun dilini əlindən almaq, onu yaddaşsızlığa məhkum etmək kifayətdir. Ana dili həm də bizim mənəvi sərhədimizdir. Hər bir kəlməsi bir ana nəfəsi qədər isti olan bu dil, gələcək nəsillərə ötürəcəyimiz ən böyük xəzinədir. Onu təmiz saxlamaq, yad təsirlərdən qorumaq hər birimizin vicdan borcudur. Çünki dilimiz yaşadıqca varlığımız bütöv, ruhumuz azad və səsimiz uca olacaq.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

## Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası yolunda növbəti uğurlu "Qisas" əməliyyatı

(Əvvəli 5-ci səhifədə)

Azərbaycan Respublikası dəfələrlə bildirmişdir ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır və həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması, qanunsuz silahlıların tərksilah edilməsi mütləq şəkildə labüddür. Və Müdafiə Nazirliyi bəyan etdi ki, Azərbaycan Respublikasının Konstitusiyanı rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks-cavab tədbirləri daha da sarsıdıcı olacaq.



Regionda tam təhlükəsizliyin təmin olunması və qanunsuz hərbi varlığın yekun olaraq aradan qaldırılması üçün növbəti qətiyyətli addım atıldı. 2023-cü il sentyabrında Azərbaycan Ordusu Qarabağda konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başladı. Yalnız legitim hərbi hədəflərin dəqiq zərbələrlə sıradan çıxarıldığı bu əməliyyat nəticəsində qarşı tərəf qısa zamanda silahı yere qoymağa məcbur oldu.

Antiterror əməliyyatının uğurla tamamlanması ilə Azərbaycan öz ərazi bütövlüyünü və dövlət suverenliyini ölkənin bütün ərazisində tam bərpa etdi. Suverenliyimizin tam bərqərar olunması 44 günlük Vətən müharibəsinin məntiqi yekunu olaraq tariximizə həkk olundu və gələcək nəsillər üçün milli qürur rəmzinə çevrildi.

Ərazi bütövlüyümüzün tam təmin edilməsinin ardınca Xankəndi şəhərində keçirilən Zəfər Paradı müasir tariximizin ən yadda qalan hadisələrindən biri oldu. Dövlət bayrağımızın Xankəndidə qürurla dalğalanması və hərbi qulluqçuların nizamlı keçidi dövlətimizin gücünü və yeni inkişaf dövrünün başladığını simvolizə etdi.

Parad zamanı çıxış edən Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının öz missiyasını şərəflə yerinə yetirdiyini bildirərək "Biz qalib xalqıq, qalib dövlətik və bu gün bu Qələbəni öz doğma torpağımızda qeyd edirik" fikri ilə Zəfərin əhəmiyyətini bəyan etdi. Şəhidlərimizin xatirəsinin əbədi yaşayacağını vurğulayan dövlət başçısı milli birliyin və güclü ordunun dövlətçiliyin əsas dayaqları olduğunu diqqətə çatdırdı. Beləliklə, Azərbaycan Ordusunun keçdiyi şərəfli yol dövlətimizin qüdrətini və xalqımızın sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirən parlaq tarixi nailiyyətlə tamamlandı.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## Dövlət İmtahan Mərkəzində keçirilən sərgidə Milli Müdafiə Universitetinin təqdimatı xüsusi maraq doğurub

(Əvvəli 6-cı səhifədə)

İştirakçı Sədaqət Nəcəfova da sərginin valideynlər üçün əhəmiyyətini vurğulayaraq övladlarının gələcək peşə seçimində belə təqdimatların mühüm rol oynadığını bildirdi. Onun fikrincə, gənclərin təhsil müəssisələri ilə birbaşa tanış olması və suallarına yerindəcə cavab alması düzgün seçim baxımından əhəmiyyətlidir.

Sərginin digər iştirakçısı İslamov Mehman Faiq oğlu da MMU-nun təqdimatına maraq göstərənlərdən idi. O, ordumuzun inkişafı ilə yanaşı, hərbi təhsil sistemində yaradılan imkanların da diqqətçəkici olduğunu bildirdi: “Qalib və rəşadətli ordumuzun təhsil sisteminin belə yüksək səviyyədə inkişafını görmək çox qürurvericidir. Milli Müdafiə Universitetinin stendinə yaxınlaşaraq oğlum üçün məlumat aldım. İnşallah, oğlumu da gələcəkdə hərbi təhsil müəssisəsində kursant kimi görmək istəyirəm. O, Hərbi Hava Qüvvələrində xidmət etmək istəyir. Çünki hərbi aviasiyanı çox sevir. Burada bizə ətraflı məlumat verdilər. MMU-nun kollektivinə göstərdikləri diqqət və verdikləri ətraflı məlumat üçün təşəkkür edirəm”.





Bu fikirlər bir daha göstərirdi ki, hərbi təhsil artıq yalnız hərbi sahəyə xüsusi marağı olan gənclərin deyil, övladının gələcəyini bu sahədə görən valideynlərin də diqqət mərkəzindədir. Dövlət İmtahan Mərkəzində keçirilən sərgi gənclərin gələcək seçimləri ilə bağlı mühüm məlumatlar əldə etməsinə, müxtəlif təhsil müəssisələrinin imkanlarını müqayisə etməsinə və qarşılarına qoyduqları məqsədləri daha dəqiq müəyyənləşdirməsinə şərait yaradır. Milli Müdafiə Universitetinin burada təqdim olunması isə hərbi təhsil sistemində yaradılan yeni imkanların geniş ictimaiyyətə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu gün Azərbaycan Ordusunun qarşısında dayanan əsas vəzifələrdən biri də yüksək biliyə, peşəkarlığa, idarəçilik və liderlik bacarıqlarına malik hərbi qulluqçuların hazırlanmasıdır. Bu vəzifənin yerinə yetirilməsində hərbi təhsil sisteminin üzərinə böyük məsuliyyət düşür. Milli Müdafiə Universitetinin fəaliyyəti də məhz bu məqsədə xidmət edir. Burada formalaşan yeni təhsil mühiti, müasir tədris imkanları, praktiki hazırlıq, xarici dil biliklərinin inkişaf etdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və kursantların hərtərəfli inkişafına göstərilən diqqət gələcəyin peşəkar hərbi kadrlarının hazırlanmasına hesablanıb.

Sərgidə görüşdüyümüz kursantların fikirlərində də eyni məqsədin müxtəlif ifadələrini eşitdik. Onların biri uşaqlıq arzusundan, digəri hərbi formanı daşımağın verdiyi qürurdan, başqası isə gələcəkdə uğurlu zabit olmaq istəyindən danışdı. Valideynlərin fikirlərində isə övladlarının Vətənə layiqli xidmət edən, savadlı və peşəkar hərbi qulluqçu kimi yetişməsi arzusu ön plana çıxdı.

Bu mənzərə bir daha təsdiqləyirdi ki, hərbi təhsil Azərbaycan Ordusunun gələcəyinin formalaşdırılmasında mühüm amillərdən biridir. Bu gün auditoriyalarda, təlim meydanlarında və təhsil müəssisələrində öz peşəsinə hazırlanan gənclər sabah Azərbaycan Ordusunun müxtəlif bölmələrində xidmət edəcəklər. Onların bilik və bacarığı, peşəkarlığı, intizamı və Vətənə sədaqəti ordumuzun gələcək gücünün əsas göstəricilərindən olacaq. Milli Müdafiə Universitetində yaradılan təhsil mühiti isə bu böyük məqsədə doğru atılan mühüm addımlardan biridir. Dövlət İmtahan Mərkəzində keçirilən sərgidə MMU-nun təqdimatı da iştirakçılara məhz bu həqiqəti çatdırır: güclü ordunun gələcəyi güclü təhsildən, güclü təhsil isə savadlı, məqsədli və Vətənə bağlı gənclərdən başlayır.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**



## “Bu kino ki var, çox qəliz məsələdir, həm qəlizdir, həm də ki vacib...”

### Azərbaycan kinosunun milli yaddaşı

Təqvim 1898-ci il avqustun 2-ni göstərir. Fotoqraf Aleksandr Mişon Bakıda “Bibiheybətdə neft fontanı yanğını”, “Qafqaz rəqsi”, “Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi” süjetlərini lentə alır. Bəlkə də, bu qısa lentlərin sonradan böyük bir kino məktəbinin bünövrəsinə çevriləcəyi haqda təsəvvürü belə yoxdu... 128 illik tarixi olan qədim məktəb...

Ümumilikdə, kino XIX əsrin ən maraqlı kəşfidir. 1895-ci ildə meydana gələn kino o dövrün bütün texniki yeniliklərdən daha çox bəşəriyyətin diqqətini çəkdi. Buna qədər kinoya yaxınlaşan müxtəlif komponentlər (fonoqraf, fotoqraf, kinetoskop) kəşf edilsə də, onların cəmindən yaranan və bütün dünyanı təəccübləndirən sinematoqraf Oqüst və Lümyer qardaşlarının adı ilə bağlıdır. 1895-ci il martın 22-də Lui Lümyer “Lümyerin Monplezir və Liondakı fabrikindən fəhlələrin çıxması” kadrını tamaşaçılara göstərdi. Dekabrın 28-də isə kinonun nadir və maraqlı tapıntı olduğunu tamaşaçılara sübut etmək məqsədilə qardaşı Oqüstlə birlikdə Parisin Kapusinov bulvarında ictimai baxış təşkil etdi. Bu kino seansı tamaşaçıların bəşər tarixində gördüyü təəccüblü və sensasiyalı bir baxış idi. Həmin gün dünya kinosunun yaranması kimi tarixə düşdü. Beləliklə, kino XIX əsr imperialist epoxasında, kapitalist cəmiyyətində yaranan burjua mühitinin yeni bir əyləncə vasitəsi kimi qəbul edildi. Bəzən bir kadr, bir baxış, bir cümlə insanın yaddaşında illərlə yaşayır. Elə bu səbəbdən, kino təkcə əyləncə vasitəsi yox, həm də dərin psixoloji təsir aləti hesab oluna bilər. Filmlər həm də xalqın tarixi, xarakteri, ağrıları, sevincləri və qəhrəmanlıq salnaməsini qeydə alan və özündə saxlayan arxivdir. Buna görə də Azərbaycan kinosunun inkişaf tarixi milli kimliyimizin formalaşması ilə yanaşı addımlayıb. Müharibələrin, zəfərlərin, itkilərin və insan talelərinin ən təsirli ifadə vasitələrindən biri də elə kino olub.



Milli kinomuz bir əsrdən artıq tarixində yüzlərlə ekran əsəri yaradıb. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılıb və həmin il aprelin 28-də Birinci Dövlət Kinofabriki açılıb. Burada çəkilən ilk film xalq əfsanəsinin motivləri əsasında yaradılmış “Qız qalası” bədii filmi olub. 1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdirilərək “Azdövlətkino”, “Azərkino”, “Azərfilm”, “Azdövlətkinosənaye”, “Bakı kinostudiyası”, “Azərbaycanfilm” adlandırılıb. Dramaturq Cəfər Cabbarlının adını daşıyan “Azərbaycanfilm”də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. “Arşın mal alan”, “Şərikli çörək”, “Ad günü”, “Sevinc buxtası”, “İstintaq”, “Yaramaz” və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən “Ögey ana”, “Uzaq sahillərdə”, “Bizim Cəbiş müəllim”, “Axırıncı aşırım”, “Nəsimi”, “Özgə vaxt”, “Sarı gəlin”, “Ovsunçu”, “Buta”, “Çölçü”, “Nabat”, “Axınla aşağı” və başqaları beynəlxalq və digər kinofestivalların müxtəlif mükafatlarına layiq görülüb.

“Bizim Cəbiş müəllim”, “Şərikli çörək”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Uzaq sahillərdə”, “Nəsimi”, “Babək”, “Fəryad” kimi filmlər müxtəlif dövrlərin qəhrəmanlıq ruhunu, Vətən sevgisini və insan xarakterini fərqli rakurslardan nümayiş etdirib. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan kinosunda hərb mövzusu həmişə xüsusi yer tutub. “Uzaq sahillərdə” filmi Mehdi Hüseynzadənin əfsanəvi döyüş yolunu milyonlarla tamaşaçıya tanıdıb. Film təkcə SSRİ məkanında deyil, bir sıra xarici ölkələrdə də nümayiş etdirilib və qəhrəman kəşfiyyatçının obrazını nəsillərin yaddaşına həkk edib. “Babək” filmi isə azadlıq uğrunda mübarizənin bədii ifadəsinə çevrilib. Tarixi faktlarla bədii təsvirin vəhdəti ilə bu ekran əsəri milli kino tariximizin möhtəşəm filmlərindən biridir. Birinci Qarabağ müharibəsindən sonra çəkilən “Fəryad”, “Haray”, “Dolu”, “Xoca”, “13” kimi filmlər isə müasir tariximizin ağrılarını ekrana gətirdi. Bu filmlər təkcə döyüş səhnələrini deyil, müharibənin insan talelərində buraxdığı izləri də nümayiş etdirdi. Xüsusilə “Fəryad” əsirlikdə olan azərbaycanlı zabitin taleyi üzərindən Qarabağ həqiqətlərini dünyaya çatdırmağa çalışdı.

Bu gün müasir Azərbaycan Ordusu haqqında yeni filmlərin və sənədli ekran əsərlərinin çəkilməsi artıq zamanın tələbidir. Vətən müharibəsində qazanılan Zəfər, antiterror əməliyyatı, hərbçilərimizin gündəlik xidməti və qəhrəmanlıq salnaməsi gələcək nəsillərə məhz kino dili ilə daha təsirli çatdırıla bilər. Çünki bəzən bir filmin yaratdığı təsir başqa heç bir vasitənin verə bilmədiyi emosiyanı yaradır. Ekran dəyişir, texnologiya yenilənir, nəsillər əvəzlənir. Amma yaxşı kino həmişə olduğu kimi insanı düşündürür, ruhlandırır və Vətənə daha möhkəm bağlayır.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | kapitan Fuad CƏFƏROV | Lisenziya № 361 Sifariş № 695 Nüsxə 3653 |